T52(2A)-524.1 + Ш3(2=Аз)-66

**Elçin Muxtar ELXAN**

GÜN ÇIX, ÇIX, ÇIX -- 2009 – 72 səh. *(şəkilli)*

Əlinizə aldığınız bu kitabda adət üzrə müqəddəs NOVRUZ bayramı ərəfəsində və bayram günləri icra olunan çoxuna bələd «KOSAKOSA» mərasim tamaşasının qədim kökləri və mümkün ola biləcək məzmunu, icra forması və erkən mətnindən söz açılır, tamaşanın kanonik mətni-ninin bərpasına cəhd göstərilir.

Kitab mütəxəssislər və adi oxucular üçün nəzərdə tutulur.

4702000000

N - 098 - 2009

© «Nurlan», 2009



## *Sözaçdı*

**S**on illərə qədər, bir qayda olaraq mübarək NOVRUZ bayramı ərəfəsində və bayram günü icra olunan «*Kosakosa*» oyunu əksər folklorşünas və milli teatr tarixçilərinin fikrincə 15 müxtəlif variantda qeydə alınıb ayrı-ayrı rayonlarda, başqa-başqa adlar altında, müxtəlif ifadə tərzində təcəssüm etdirilsə də, əslində onlar müəyyən bir mifə-əsatirə söykənən çox qədim bir mərasim tamaşasının xələfləri, pərakəndə düşmüş hissələridirlər.

Mərhum tədqiqatçı Nəsir Rzayev «*Kosakosa*» mərasim tamaşasının ibtidasını tunc dövrünə, miladdan öncəki II minilliyə aparıb çıxararaq yazır; «*Erkən çağlar qəbilə çərçivəsində icra olunmuş bu oyun yalnız günsevərlik etiqadının bərqərar olduqu dövrlərdə əməlli başlı formalaşmışdır*»